Aprelin 27-də Təhsil Nazirliyinin birbaşa nəzarəti ilə Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Əli Bayramlı şəhərləri, Ucar, İsmayıllı, İmişli, Abşeron rayonlarının ümumtəhsil, məcburi köçkün məktəbləri və peşə liseylərinin buraxılış siniflərində orta təhsil kursu üzrə növbəti yoxlama test imtahanı keçiriləcək. İmtahanda şagirdlər 8 əsas fəndən 125 suala 7 variant üzrə cavab verəcəklər.

Məlumat üçün bildiririk ki, keçiriləcək yoxlama imtahanının nəticəsi attestata yazılacaq yekun qiymətin 10 %-ni təşkil edəcək. Onu da qeyd edək ki, fevralın 24-də orta ümumtəhsil məktəblərində keçirilən ikinci yoxlama imtahanında 52 minə yaxın şagird iştirak edib, müvəffəq göstəricisi isə 61% olub.